


İnara Əliyeva:
"İmadəddin Nəsimi" (kompüter qrafikası)





## *Xoş gördük, əziz oxucularımız!*

Üzərində son dərəcə böyük səy və diqqətlə çalışdığımız "Nəsimi – 650" xüsusi buraxılışımızla qarşınızdayıq! Yəqin, bu sayın həcminin "ikisi birində" olduğunun fərqinə vardınız. Nə üçün biz xüsusi sayları məhz bu prinsiplə nəşr edirik? Çünki mövzunu bölmək, yarımçıq şəkildə oxucuya təqdim etmək istəmirik, jurnalın məhdud sayda deyil, bölgə oxucularına yetərli və özəl mövzunun miqyasını əhatə edə biləcək məzmunda olmasına çalışırıq. İddialı deyilik, lakin sevə-sevə, əzizləyə-əzizləyə ərsəyə gətirdiyimiz dərginin respublikada bu mövzuya həsr olunan nəşrlər sırasında özünəməxsus yer alacağının altını cızırıq. Amma, əlbəttə ki, son sözü, hörmətli oxucu, Siz deyəcəksiniz!

Ah, Nəsimi, Nəsimi! Zatən əsrlər boyu sirli-sehrli poeziyan, dərin fəlsəfən, bənzərsiz lirikanla ürəkləri fəth etdin. Ta altı əsr öncə dolaşdığın fikir labirintlərində bizi də ardınca aparmaq, insan mənzərələrinin sirləri ilə qarşılaşdıraraq özümüzü özümüzə tanıtmaq, bəzən nə qədər ali və təkrarsız, bəzən də nə qədər səbatsız və zəif olduğumuzu, bu kamal ilə Haqq deməkdən çəkinib İNSANı – Yaradanın öyünc yeri kimi dünyaya bəyan etmək, anlatmaq istərkən, özünün ayətinə sığmayan şöhrətinlə həqiqəti bəyan yolunda mükafatın dabanından soyulmaq olsa belə, yenə də Yaradana İnsan kimi bir gözəlliyi xəlq etdiyi üçün dualarda bulunmağı tərcih edən Nəsimi! Bəşəriyyətə elə bir nəsim əsdirdin ki, havası dünya durduqca düşünən beyinləri, uca qəlbləri, var olmaq istəyən xalqları və millətləri məşğul edəcək. Nə mutlu o xalqa ki, başbilənləri Sənin kimi şəxsiyyətlərin adını hər zaman uca tutacaq, ölməzliyinin və əbədi varoluşunun qaynağına çevirəcək! Şükür, azərbaycanlı olaraq bundan xali deyilik, bu qayğını ölkə rəhbərlərimizdən həmişə gördük, dəyərləndirdik.

Nəsimi o qədər böyük bir dühadır ki, şəninə min-min belə dərgilərin səhifələrində yer ayrılsa belə, yaradıcılığının tamamən ehtiva olunması namümkündür. Amma və lakin, biz bu sayımızda dünyanın və Azərbaycanımızın alimlərinin, yazı adamlarının qələminin gözü ilə bu xəzinənin qapısından boylandıq, oxucularımız üçün ümumi bir mənzərə yaratmaq istədik, tarixə baş vurub ölkə rəhbərliyimizin bu yoldakı xidmətlərindən söz açdıq, Nəsimi yaradıcılığının dünya ədəbiyyatı ilə əlaqələrinin ilkin araşdırmaçılarıyla tanış etdik, müasirlərimizin tədqiqatları, ədəbiyyat, sənət, musiqi, teatr təmayüllərində yaranan nəsimi hiss etmək cəhdində bulunduq. Və nə gözəl ki, 2019-cu "Nəsimi ili"ndə bu müqəddəs missiyadan – Nəsimi təfəkkürünün intəhasız dəryasından bircə qətrə olmaq şərəfi qismətimizə düşdü. Azərbaycandan yol alıb Nəsimi yaradıcılığının keçdiyi geniş coğrafiyaya nəzər salaraq Şərqdən Qərbə əsən meh adına Türkiyəni, Almaniyanı, Fransanı, Suriyanı, Misiri, Ərəbistanı, Özbəkistanı, Rusiyanı, İngiltərəni dolaşıb yenə də Nəsiminin Vətəninə – Azərbaycanımıza döndük, Nəsimi ruhunu ehtiva edən musiqinin sehrinə daldıq, sənətkarlarımızın fırça və tişələrində canlandırılan Şairi gördük, səhnələrimizdə Nəsimi adına yaradılan obrazlara valeh olduq, kinomuzun Nəsimisi ilə bir daha görüşdük, yeni yazılan bədii əsərlərin sətirlərindən pay aldıq, alimlərimizin geniş tədqiqatlarının şahidi olduq, onlardan öyrəndik, müasirlərimizin Nəsimi eşqiylə yazılan nəzirələrindən həzz aldıq və Nəsiminin bütün zamanların ədibi, şairi və filosofu məqamına bir daha əmin olduq.

Əziz və dəyərli oxucularımız! Nəsimi dəryalarında üzmək hər kəsin hünəri olmasa da, mütəvazö əməyimizi Sizə sevə-sevə təqdim edir, dəyər verəcəyinizi umuruq!

Nəsimi ruhuna ehtiram və

sevgilərlə,

**Zöhrə Əliyeva,**
filologiya üzrə fəlsəfə doktoru,
Əməkdar mədəniyyət işçisi

03